İlyas Abdullayev

# Mən, Həyat və Gələcək

**memuar**

qanun nəşriyyatı

Azərbaycanlı dövlət xadimi, akademik Moskvada – Elmlər Akademiyasının Xəstəxanasında müalicə alır. Həmişə gərgin işlə məşğul olduğu üçün burada da bikar qala bilmir. Lakin xəstəxanada elmi fəaliyyət üçün şərait yoxdur. Bəs nə etsin? Bir müddət düşünəndən sonra özünə iş tapır. Xatirələrini yazmağa başlayır. Tale möhləti ilə ölümündən az əvvəl yazdıqlarını bitirir. Beləliklə, tariximizin 1930–70-ci illərini əhatə edən bu dəyərli memuar meydana çıxır. Lakin kitab şəklində müəllifinin ölümündən qırx il sonra işıq üzü görür.

Bildiyiniz kimi, bizdə memuar janrı o qədər də geniş yayılmayıb. Əlinizdəki kitab bu boşluğu layiqincə dolduran nümunələrindəndir. Müəllifin zəngin həyat yolu, elm sahəsindəki uğurları, hətta bir neçə dəfə Azərbaycan SSR-nin rəhbərliyində təmsil olunması kitab üçün zəngin materiallar vermişdir.

"Mən, Həyat və Gələcək" memuar janrını sevən geniş oxucu kütləsi üçün əvəzolunmaz kitabdır.

**İlyas Abdullayev. Mən, Həyat və Gələcək**
***memuar***

Bakı, Qanun Nəşriyyatı, 2024, 272 səh.

Janr: non fiction/memuar/tarix
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.02.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Lalə Əmirova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Aytac Abdul |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-881-7

© Qanun Nəşriyyatı, 2024
© İlyas Abdullayev, 2024

**İlyas Kərim oğlu Abdullayev** 23 mart 1913-cü ildə Ağstafanın Qıraq Kəsəmən kəndində dünyaya gəlmişdir. 1921–1926-cı illərdə Ağstafa beşillik dəmiryolu məktəbində oxuyub. 1926–1930-cu illərdə isə Zaqatala kənd təsərrüfatı texnikumunda təhsilini davam etdirib. 1934-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və eyni zamanda 1932–1934-cü illərdə "İpəkçilik" kafedrasında laborant işləmişdir. 1939-cu ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

Dövlət xadimi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki. Azərbaycanda tutçuluq elminin əsasını qoyan görkəmli akademik, bioloq, ictimai xadim, eyni zamanda Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutunun tut bitkisinin genetika və seleksiyası şöbəsinin müdiri, Azərbaycan SSR EA-nın biologiya elmləri bölməsinin akademik katibinin müavini, Azərbaycan SSR kənd təsərrüfatı naziri (1950–1954), Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1954–1958), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1958–1959), SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini (1958–1962). "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı", SSRİ medalları və SSRİ XTNS-nin qızıl medalları ilə təltif edilmişdir. "Azərbaycan SSR-in Atlası"nın hazırlanması və nəşri üzrə Azərbaycan SSR EA-sı komissiyasının sədri, Azərbaycan Sovet Ensiklopediyası elmi redaksiya şurasının üzvü,

Azərbaycan genetiklər və seleksiyaçılar cəmiyyətinin prezidenti, Azərb. SSR EA “Xəbərləri” (biologiya elmləri seriyası) jurnalının redaktor müavini olmuşdur.

1934–1938-ci illərdə AKTİ-nun aspirantı olmuş və eyni zamanda ipəkçilik şöbəsində tutçuluq kursundan mühazirələr oxumuşdur. İ.KAbdullayevin böyük istedadını nəzərə alaraq 1934-cü ilin avqust ayında Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi onu eyni zamanda Azərbaycan elmi-tədqiqat ipəkçilik stansiyasına işə göndərmişdir. Beləliklə də o, 1934–1935-ci illərdə tutçuluq şöbəsində elmi işçi, 1936–1940-cı illərdə isə müdir vəzifəsində işləmişdir. O, qısa zamanda özünü bacarıqlı təşkilatçı kimi göstərmiş və 1941–1942-ci illərdə eyni zamanda Azərbaycan elmi-tədqiqat İpəkçilik Stansiyasının direktoru vəzifəsində çalışmışdır. 1955-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1959-cu ildən Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutunun tut bitkisinin genetika və seleksiyası şöbəsinin müdiri olmuşdur.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin kənd təsərrüfatı şöbəsinin müdir müavini və müdiri (1942–1948), Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini (1948–1950), Azərbaycan SSR kənd təsərrüfatı naziri (1950–1954), Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1954–1958), habelə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1958–1959) vəzifələrində çalışmışdır.

SSRİ Ali Soveti və Azərbaycan SSR Ali Sovetinin bir neçə çağırışlarının deputatı, Ümumittifaq kommunist (bolşeviklər) partiyası, SovİKP və Azərbaycan Kommunist Partiyası və Kommunist Partiyasının bir sıra qurul-

taylarının deputatı, Azərbaycan KP (b) və KP-nın Mərkəzi Komitəsi, habelə Azərbaycan KP-nın Bürosunun üzvü, SovİKP Mərkəzi Komitəsi Plenumlarının iştirakçısı olmuşdur.

"Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı", SSRİ medalları və SSRİ XTNS-nin qızıl medalları ilə təltif edilmişdir.

İlyas Abdullayev 30 aprel 1985-ci ildə Bakı şəhərində vəfat etmişdir.

# GİRİŞ

Vətənim Azərbaycan çox səfalı ölkə, gözəlliyi ilə tayı-bərabəri olmayan bir diyardır. Böyük və Kiçik Qafqaz dağlarının arasında yerləşən Azərbaycan uca zirvələri, gözəl meşələri, bağlı-bağçalı sahələri, Şirvan, Muğan, Mil-Qarabağ düzənliklərində, dağ ətəklərində böyük bacarıq və istəklə becərilən taxıl, pambıq, yonca zəmiləri, üzüm plantasiyaları, tut bağları demək olar ki, əsas kənd təsərrüfatı bitkiləri ilə zəngin olan gözəl torpaq və iqlimə malik, hamı tərəfindən sevilən, bacarıqlı, hünərli bir xalqın vətənidir.

Mən uşaqlıqdan bu diyarı bütün mənliyimlə sevmiş, özümü bu torpağın oğlu hesab etmiş, bütün ömrüm boyu bu diyara, onun gözəl xalqına vicdanla qulluq etməyi özümə borc bilmişəm. Hərgah, mənim əməyim, bilik və bacarığım az olsa da, həmişə vəzifələrin yerinə yetirilməsinə yönəlib və tamamilə bu məqsədə qulluq etdiyimə görə özümü xoşbəxt hesab edə bilərəm.

Dostum, həmyerlim, gözəl insan və çox məharətli şair Səməd Vurğunun vətənimiz haqqında:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

– sözləri ilə başlayan şeiri hamımızın qəlbində və dilində olduğu kimi, mənim də qəlbimdə və dilimdədir.

Mən, 1913-cü ilin 23 martında Qazax şəhərində anadan olmuşam, ancaq lap balaca ikən Ağstafaya köçdüyümüzdən uşaqlıq dövrüm orada keçmişdir. Atamın dediyinə görə, adımın Elyaz qoyulmasında, anadan olduğum günün rolu olmuşdur. Bu adı mənə qoymaqla, ilin yaza keçdiyi xoş gündə dünyaya gəldiyimi vurğulamaq istəmişlər.

Əslimiz Qazax mahalının Qıraq Kəsəmən kəndindəndir. Babam hələ cavan ikən Qazaxa köçmüş, orada evlənmiş, xırda ticarətlə məşğul olmuşdur. Eyni zamanda kifayət qədər uzaqgörən və dərrakəli adam olduğundan, öz uşaqlarını, o cümlədən, atamı da oxutdurmuşdur.

Mən bu qeydləri Moskvada, Elmlər Akademiyasının Xəstəxanasında yatdığım günlərdə yazmağa başladım. Heç vaxt gündəlik aparmamışam və özüm haqda nələrsə yazmaq fikrində olmadığımdan, bugünəcən heç bir qeydim belə olmamışdır.

Moskvada elmi ezamiyyətdə olarkən uzun müddət mərkəzi kitabxanalarda apardığım tədqiqatlar, akademik N.V.Sisinin özü və işçiləri ilə baş nəbatat bağında etdiyimiz elmi söhbətlər, avqust ayının isti günlərinə baxmayaraq, sahələrdə saatlar boyunca onların təcrübələri ilə tanış olmağım ümumi rejimimin xeyli pozulmasına və ürəyimdə əvvəllər də özünü göstərən ağrıların getdikcə artmasına gətirib çıxardı. Bir gün sahədə, uzaq hibridləşmə təcrübələri nəticəsində alınan bitkilərlə tanış olduğum əsnada özümü pis hiss etdim, başım gicəlləndi, ürəyim qısıldı və məni təcili yardım maşını ilə düz xəstəxanaya gətirdilər ki, burada bir neçə aylıq müalicə kursu almağa məcbur oldum. Boş vaxtım çox olduğundan da, bu qeydləri yazmağa qərar verdim. Xəstəxanada mütləq, özü də uzun müddət yatmalı olduğumu artıq bilirdim.

Həqiqətən də belə bir şərait və məkanda başqa nə ilə məşğul olmaq olar? Elmi hesabat yazmaq və yaxud başladığım məqalələri axıra çatdırmaq üçün mütləq Bakıda olmalı, orada olan materiallardan və xüsusilə, yekunlaşmış təcrübə nəticələrindən istifadə etməli idim. Deməli, bu variant heç cür alınmırdı.

Odur ki, Moskva və Leninqradda olduğum müddətdə gördüyüm işlər haqda xırda hesabatı yazıb bitirdikdən sonra, qalan vaxtımı necə səmərəli keçirəcəyimi düşünərkən, avtobioqrafik bir əsər yazmağı qərara aldım. Belə düşündüm ki, burada qeyd olunan hadisələr oxucuları nə zamansa maraqlandırsa, gələcəkdə kimsə əlyazmamı bir qədər qaydaya salıb dərc etdirə bilər. Yox, əgər yazdıqlarım heç kəsə maraqlı olmasa, əlyazmam evdəki kitabxanamda qalar. Beləliklə, “görülən işlə, yazılan əsər heç vaxt itib-batmır” fikri tərəddüdlərimə qalib gəldiyi üçün, qələmi əlimə alıb işə başladım.

Hadisələr yadıma necə düşürdüsə, elə o cür də yazırdım. Bilmirəm, qarşıya qoyduğum vəzifənin öhdəsindən gələ bildim, ya yox? Qoy, buna oxucu qiymət versin.

## UŞAQLIQ İLLƏRİ

Bizim əslimiz Azərbaycanın qərbində yerləşən Qazax mahalının Qıraq Kəsəmən kəndindəndir. Bu kənd səfalı Kür çayının sağ kənarında yerləşir. Sol tərəfdə Muğan düzü uzanır, Kürün qarşı tərəfində isə Ceyrançöl qışlağıdır. Mahalın ən köhnə yaşayış məntəqələrindən biri olan bu kəndin sakinləri bacarıq, məharət və işgüzarlıqları ilə fərqlənir. Məharətli Qaçaq Kərəm, böyük dövlət xadimi Ağamalı oğlu, 200-dən çox ali və 400-dən çox orta təhsilli mütəxəssis bu kənddən çıxmışdır.

Babam Abbas evləndikdən sonra Qazax şəhərinə köçərək, orada bir müddət sonra yaxşı bir bina tikir, ticarətlə məşğul olmağa başlayır. Özü savadsız olmasına baxmayaraq, müsbət fikirli, maarifpərvər adam idi deyə, uşaqlarını məktəbə yazdıraraq, onlara təhsil verir.

Babam yerli məmurlara və çarın çinovniklərinə qarşı mübarizə aparan Qaçaq Kərəmə də hər zaman hüsn-rəğbətlə yanaşardı. Hətta, bir dəfə Dilican ətrafındakı yaylaqda Qaçaq Kərəm öz dəstəsilə ona qonaq gəlir və çox yaxşı qarşılanır deyə, babamı bütün ailəsi ilə birlikdə Sibirə sürgün edirlər. Deyilənə görə, çox böyük çətinlik və xərc sayəsində, Tiflisdəki şeyxülislamın vasitəçiliyi və Qafqaz canişininin sərəncamı ilə yoldan geri qaytarılır.

Babamın birinci yoldaşı Bəyimxanım çox hörmətli qadın idi. At minmək, güllə atmaq, cıdıra çıxmaqda kişilərdən heç də geri qalmırdı. Onun iki oğlu – atam Kərim və əmim Məhəmməd, bir də qızı – bibim Səadət olmaqla üç övladı var idi.

Ucaboy, göygöz, arıq, xoş sifətli və mülayim xasiyyətli atam, ona müraciət edən hər kəsə kömək əlini uzatmağı, təvazökarlığı və dürüstlüyü ilə tanınırdı. İkiillik məktəb qurtarmağına baxmayaraq, dərin savada malik idi, gözəl xətlə yazır, boş vaxtlarında mütləq mütaliə edirdi. Biliyə yiyələnməkdən həddən artıq zövq alırdı.

Qohumumuz Məhəmmədəli dayı maraqlı bir hadisə danışmışdı. İkiillik məktəbdə oxuyarkən, bayram şənliklərinə hazırlıq vaxtı İsa müəllim fişəng hazırlamaq üçün kömür əzməyi, kağızdan qəlib düzəltməyi mənə tapşırırdısa, atana kişmiş, xurma təmizləməyi, şirniyyat hazırlamağı tapşırırdı. Çünki atan onları nə özü yeyirdi, nə də bizə verirdi. Biz istəyəndə də deyirdi ki, "gedin, müəllimdən icazə alın, gəlin verim, yoxsa gedin hazır olanda onsuz da yeyəcəksiniz."